**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində Seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti həyata keçirən Mətbuat qrupunun iclasının**

**1 saylı P R O T O K O L U**

Bakı şəhər 16 sentyar 2013-cu il

**İştirak edirlər:**

1. Mərkəzi Seçki Komissiyasının üzvü, Mətbuat qrupunun rəhbəri Azər Cabir oğlu Tağıyev.
2. Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Musa oğlu Cavadov.

3. Mərkəzi Seçki Komissiyasının üzvü Almas Əlisultan qızı Qəhrəmanlı.

4. Mərkəzi Seçki Komissiyası Katibliyi Media və ictimai əlaqələr şöbəsinin müdiri Azər Tofiq oğlu Sarıyev.

5. AzərTAc- Dövlət Teleqraf Agentliyi – Xətai Əzizov

6. APA İnformasiya Agentliyi – Ramil Məmmədov

7. "Olaylar" İnformasiya Agentliyi – Elman Cəfərli

8. "Trend" İnformasiya Agentliyi – Elçin Hüseynov

9. "Azərbaycan televiziya və radio verilişləri" Qapalı Səhmdar Cəmiyyəti -Vaqif Həsənov

10. İctimai Televiziya və Radio Yayımları Şirkəti – Mehparə Quliyeva

11. "Lider" telekanalı – Anar Şükürov

12. "Azərbaycan" qəzeti – Elgün Mənsimov

13. "Yeni Müsavat" qəzeti-Fərahim İlqaroğlu (Qasımov)

14. "525-ci qəzet" – Kamil Həmidov

15. "Kaspi" qəzeti – İlham Quliyev

16 . "Gündəlik teleqraf" qəzeti – Səxavət Həmidli

Gündəlik

1. 9 oktyabr 2013-cü ilə təyin edilmiş prezident seçkilərində seçkiqabağı təşviqatın aparılması qaydalarına riayət olunmasına dair məsələlərin müzakirəsi

İclası Mərkəzi Seçki Komissiyasının üzvü, Mətbuat qrupunun rəhbəri Azər Tağıyev açaraq bildirir: Sentyabrın 16-dan seçki kampaniyasının təbliğat-təşviqat mərhələsi başlayıb. Artıq prezidentliyə namizədlərin radio ilə ilk təşviqatı baş tutub. Mən həmin debatı izlədim. Çıxışlarda qanun pozuntusuna rast gəlmədim. Bu elə belə də olmalıdır. Bizim də Mətbuat qrupu olaraq vəzifəmiz bundan ibarətdir ki, həmin prosesi nəzarətdə saxlayaq. Bu çox vacibdir. Çünki bu prosesdə pərakəndəliyə yol vermək olmaz. Qrupun hər bir üzvü təşviqat prosesini yaxından izləməlidir. Həm radioda, həm televiziyada, həm də çap KİV-lərində qrup üzvləri fərdi olaraq monitorinq aparmalıdırlar. İmkan olduqca bölgə KİV-lərini də izləmək lazımdır. Bölgələrdəki KİV-lərdə seçki qanunvericiliyinin pozulmasının monitorinqi dairə seçki komissiyaları tərəfindən izlənilir. Namizədlər, onların səlahiyyətli nümayəndələri, partiyalar, seçki blokları və digər seçki subyektləri tərəfindən müraciətlər

olarsa, onların hər birinə hüquqi müstəvidə münasibət bildirilməlidir. Təbii ki, bu, araşdırmalardan sonra həyata keçirilməlidir. Məqsədimiz inzibati cəza yolu ilə bu problemlərin həll etmək olmamalıdır. Yaranan problemləri qarşılıqlı anlaşma şəklində, maarifləndirmə və təbliğat yolu ilə aradan qaldırmalıyıq.

**Ramil Məmmədov**: Sosial şəbəkələrə nəzarət necə həyata keçiriləcək. Axı bu mümkün deyil.

**Azər Tağıyev**: Tamamilə doğrudur. Sosial şəbəkələrdə, interent resurslarında monitorinq həyata keçirmək mümkün deyil. Bu sahəni tənzimləyən hər hansı bir hüququi sənəd mövcud deyil. Eyni zamanda bu, bizim imkanlarımızın xaricindədir. Yeri gəlmişkən, dünyanın heç bir yerində bu sahə hüquqi cəhətdən tənzimlənmir. Amma həmin şəbəkələrdə biz təhqir elementlərinə rast gələriksə, bunu müzakirəyə çıxara bilərik.

**Xətai Əzizov**: Seçicilərlə görüşlər üçün qapalı və açıq yerlərin siyahısı çap olunub. Namizəd hansısa özəl obyekti icarəyə götürüb tədbir keçirə bilərmi?

**Almaz Qəhramanlı**: Bəli. Namizəd həmin obyektin sahibi ilə qanuni müqavilə bağlayıb tədbir keçirə bilər.

**Azər Tağıyev**: Kimin əlavə sualı, sözü var?...Əgər yoxdursa, Azər Sarıyev bu günkü iclasda iştirak barədə məlumat versin və iclasımızı yekunlaşdıraq.

**Azər Sarıyev**: Bugünkü iclasda Mətbuat qrupunun 19 üzvündən 15-i iştirak edir.

**Azər Tağıyev: Sağ olun. Uğurlar arzu edirəm.**

| | |
|---|---|
| **Sədr** | **Azər Tağıyev** |
| **Katib** | **Azər Sarıyev** |